# Şöhrət qəhrəmanlığı ilə şöhrət qazandı



**İkinci Qarabağ müharibəsində peşəsindən, ixtisasından asılı olmayaraq, bütün hərbçilər üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla, cəsarətlə və böyük hünərlə gəldilər. Onlar qələbəmiz, zəfərimiz naminə həyatlarını təhlükəyə ataraq mərdliklə düşməni məğlub etdilər.**

Hərbi həkimlərimiz də torpaqlarımızın azadlığı naminə böyük igidlik və şücaət göstərdilər. Nə qədər çətin olsa da, onlar öhdələrinə düşən döyüş tapşırıqlarını bacarıqla yerinə yetirdilər. Əks-hücum əməliyyatları zamanı hərbi həkimlər neçə-neçə döyüşçünün həyatını xilas etdilər. Təəssüf ki, döyüş meydanında hərbi həkimlərimiz arasında da şəhidlik məqamına yüksələnlər oldu.

Tibb xidməti baş leytenantı Qasımov Şöhrət Şakir oğlu da hərbi həkim idi. Digər cəsarətli oğullarımız kimi, o da 44 günlük Vətən müharibəsi başlayanda yurdumuzun müdafiəsinə atılmışdı. Amma Şöhrətin döyüş yolu uzun çəkməmişdi. Şöhrət Qasımov Suqovuşan kəndi uğrunda gedən əməliyyatda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdu. Yaxınları, doğmaları göz yaşları içində onu Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırmışdı. Gənc zabit Vətən müharibəsində şəhid olan ilk hərbi həkim idi.

## Şöhrət Aprel döyüşlərində də iştirak etmişdi

Şöhrət Qasımov 16 avqust 1992-ci ildə Gədəbəy rayonunda dünyaya göz açmışdı. Sonra ailəsi Sumqayıt şəhərinə köçmüşdü. Gələcəyin həkimi ,ilk təhsilini Sumqayıt şəhərindəki 18 saylı tam orta məktəbdə almışdı. Bir müddət sonra, 2009-cu ildə Şöhrət təhsilini Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayonu 5 saylı orta məktəbdə davam etdirmişdi. O, həmişə kitab oxumağa böyük maraq göstərmiş, buna görə də dərslərindən yüksək qiymətlər almışdı.

Şöhrət həkim olmaq, insanların sağlamlığı keşiyində dayanmaq istəyirdi.

Nəhayət, illərdən bəri ürəyində tumurcuqlamış arzularına çatır. O, orta təhsilini başa vurduqdan sonra 2009-cu ildə yüksək balla Azərbaycan Tibb Universitetinin (ATU) Hərbi tibb fakültəsinə qəbul olur. Təhsil illərində elmi biliklərə daha dərindən yiyələnir. Universiteti uğurla bitirdikdən sonra Müdafiə Nazirliyinin "N" hərbi hissəsində xidmətə başlayır. İllər ötüb arxada qaldıqca hərbi tibb qulluqçusu olan gənc zabit biliyi, bacarığı və nizam-intizamı ilə diqqət çəkir. Yorulmaq bilmədən zabit və əsgərlərin sağlamlığı keşiyində dayanır, nümunəvi xidməti ilə fərqlənir.

Tibb xidməti baş leytenantı Şöhrət Qasımov 2016-cı ildə Aprel döyüşlərində hərbi həkim kimi iştirak edib. Əməliyyatlar zamanı üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlib. Neçə-neçə zabit və əsgəri ölümdən xilas edib. Təcrübə və səriştəsini nəzərə alan komandanlıq 2018-ci ildə gənc zabiti hərbi hissənin tibb xidməti rəisi vəzifəsinə təyin edib. Xidmət illərində nümunəvi zabit, öz işini bilən savadlı, peşəkar həkim kimi həm komandanlığın, həm də zabit və əsgərlərin böyük rəğbətini qazanıb. Buna görə xidməti dövründə fəxri fərmanlara və təşəkkürnamələrə layiq görülüb. Qazandığı bu uğurlar onu hərbi xidmətə daha da həvəsləndirib. Gənc zabit düşünürdü ki, onun ən böyük uğurları hələ irəlidədir. İnanırdı ki, sıralarında xidmət etdiyi, gündən-günə qüdrətini artıran Azərbaycan Ordusu günlərin birində erməni işğalında qalmış torpaqları azad edəcək. Şöhrət Qasımovun gözlədiyi həmin gün 27 sentyabr 2020-ci ildə gəldi.

Hərbi hissənin tibb xidməti rəisi, baş leytenant Şöhrət Qasımov erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində hərbi həkim kimi iştirak etdi. Elə ilk əməliyyatlarda cəsarət göstərdi. Gənc zabit 2 gün ərzində iştirak etdiyi döyüşlərdə bir çox mühüm tapşırığı yerinə yetirdi. O, həyatını riskə qoyub neytral zonada qalmış yaralılarımızı və şəhidlərimizi çıxartdı. Sonuncu dəfə 29 sentyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək bir neçə çətin tapşırığın öhdəsindən gəldi. Yaralıları döyüş bölgəsindən çıxaran zaman düşmənlə üz-üzə gəldi və son nəfəsinə qədər cəsarətlə vuruşdu. Döyüş-döyüşə zirehli maşında olan 4 yaralı hərbçini xilas etdi. Təəssüflər olsun ki, həmin gün hərbi həkim Şöhrət Qasımov şəhid oldu. Özünün də cəsədi neytral zonada qaldı. Onun nəşini yalnız oktyabrın 9-da çıxarmaq mümkün oldu.

## Daim ehtiramla xatırlanacaq oğullar

Vətən müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Şöhrət Şakir oğlu Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülmüşdür.

Şəhidin atası Şakir Qasımov bir anlıq fikrə gedib dedi ki, oğul itirmək valideyn üçün çox ağırdır: "Yeganə təskinliyimiz ondadır ki, övladlarımız Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda şəhid olublar. Oğlum Şöhrət Qasımov ona verdiyimiz adı doğrultdu. Şöhrətlə yaşadı, şöhrətlə də şəhid oldu. Şöhrət ata-baba yurdumuz Gədəbəy rayonunda dünyaya göz açmışdı. Sonra biz ailə vəziyyəti ilə əlaqədar Sumqayıt şəhərinə köçdük. Orta təhsilini bitirdikdən sonra yüksək balla Azərbaycan Tibb Universitetinə qəbul oldu. Şöhrət başqa sahəni də seçə bilərdi. Amma o, hərbçi olmaq istədiyini bildirdi, bu yolla getdi. Hərbi forma oğluma çox yaxşı yaraşırdı. Xidmətə başlayandan sonra sanki həyata yenicə doğulmuşdu. Həm həkim, həm də hərbçi kimi iki müqəddəs peşənin öhdəsindən layiqincə gəlməyə çalışırdı. O, idmanı da çox sevir, güləşlə məşğul olurdu. 2020-ci il sentyabrın 27-də döyüşlər başlayanda onları Suqovuşan kəndi istiqamətində gedən əməliyyatlara cəlb ediblər. Şöhrət elə ilk günlərdən neçə-neçə yaralı əsgər və zabitin həyatını xilas edərək hərbi həkim kimi üzərinə düşən tapşırıqların öhdəsindən cəsarətlə gəlib. Təəssüflər olsun ki, onu tez itirdik. Qarabağı azad görmək istəyən oğlum müharibənin ikinci günü - sentyabrın 29-da döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Oğlumun iki övladı - Murad və İlayda yadigar qalıb. Onları oğlumun adına layiq böyüdəcəyik".

Xalqımız torpaq və Vətən uğrunda şəhid olan Şöhrət kimi bir-birindən cəsur, igid oğulları heç vaxt unutmayacaq. Həm bugünkü, həm də gələcək nəsillər həmişə onları hörmətlə xatırlayacaq, dərin ehtiramla yad edəcəklər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***